


# Sahibkarlar üçün vahid elektron məlumat portalı

Dr. AQŞİN ƏLİYEV

# GİRİŞ

- Layihənin məqsədi
- Problemin təsviri
- Layihənin səmərəliliyi
- Layihənin innovativliyi
- Layihənin üstünlüyü
- Tələb olunan ehtiyaclar



# Layihənin məqsədi

Azərbaycanda sahibkarlıq fəaliyyətinə başlayan və (və ya) sahibkarlıq fəaliyyəti ilə məşğul olan şəxslər tərəfindən ticarət əməliyyatlarının həyata keçirilməsi zamanı gömrük və vergi öhdəliklərinin miqdarı və tələb olunan sənədlər, fəaliyyəti zamanı yaranacaq vergilər, dövlət xərcləri və s. haqqında **vahid elektron məlumat portalı və mobil aplikasiyanın yaradılmasını** nəzərdə tutur.



# Problemin təsviri

**Problemin aktuallığı:** Azərbaycanda sahibkarlığa başlayan şəxslərin bütün növ məhsulların idxalı zamanı tətbiq olunan gömrük rüsumları və fəaliyyəti zamanı yaranan bütün növ vergilərdən tam məlumatlı olmaması nəticəsində **biznesdə uğur qazana bilməməsi** və ya **fəaliyyətini tamamilə dayandırması**



**Yenilik:** Azərbaycanda ilk dəfə olaraq Vergi və Gömrük orqanlarının birgə işinin əlaqələndirilməsi nəticəsində vahid elektron məlumat portalının sahibkarların istifadəsinə verilməsi

# Layihənin səmərəliliyi

Layihənin səmərəliliyi **3 istiqamətdə** dəyərləndirilmişdir:

1. İqtisadi
2. Sosial
3. Ekoloji



# 1. İqtisadi səmərəlilik

- Sahibkarlıq fəaliyyətinə başlayan şəxsin  gömrük rüsumları və  vergi öhdəlikləri haqqında **ilkin məlumat əldə etməsi**

A



- Bütün növ məhsullar üzrə gömrük rüsumlar və vergi öhdəlikləri haqqında əldə olunan məlumatlara əsasən **xərclərə effektiv nəzarətin təşkili;**

B



- Gömrük rüsumları və vergi öhdəliklərinə edilmiş dəyişikliklər haqqında sahibkarın  öz fəaliyyətini **düzgün formalaşdırması**

C



# 2. Sosial səmərəlilik

- Sahibkarlığa dövlət dəstəyinin növbəti addımının təzahürü kimi **sahibkarlıq fəaliyyətinin təşviqi** və **iqtisadi artımın dəstəklənməsi**

A



- Cəmiyyətdə **“məlumatlı sahibkarlığın formalaşması”**

B



- Sahibkarlıq fəaliyyətində innovativ mexanizmin tətbiqi və **informasiya kommunikasiya texnologiyalarından** istifadə imkanlarının genişləndirilməsi;

C




- Vahid məlumat portalı və mobil aplikasiyadan məlumatların daha qısa zaman çərçivəsində əldə olunması nəticəsində idxal-ixrac əməliyyatlarının həyata keçirilməsinə sərf olunan ümumi **vaxt itkisinin azaldılması**.

D



# 3. Ekoloji səmərəlilik

- Gömrük rüsumları və vergi öhdəlikləri barəsində məlumatların və eləcə də idxal-ixrac zamanı tələb olunan sənədlərin elektron formada əldə olunması nəticəsində ümumi sənədləşmə proseslərində **əlavə kağız sərfiyyatının azaldılması**

A



# Layihənin innovativliyi

1. İqtisadi səmərəlilik
2. Vaxt itkisinə qənaət
3. Yüksək əlavə dəyər yarada biləcək texnologiya və istehsal metodu
4. İqtisadi artımın dəstəklənməsi
5. İqtisadi məhsuldarlığı yüksəldəcək yeni elektron xidmətin tətbiqi
6. Daha az əməktutumlu infrastruktur
7. Vergi, Gömrük orqanları və “Bir pəncərə” İxraca Dəstək Mərkəzi arasında qarşılıqlı əməkdaşlığın və kommunikasiya əlaqələrinin inkişafı
8. Əmək bazarının və məşğulluq tədbirlərinin inkişafına dəstək

# Layihənin üstünlüyü

Elektron məlumat portalında gömrük rüsumları ilə yanaşı, məhsulun satışından, icarə haqqından, işçilərin əmək haqqından tutulan **vergilərin miqdarı** barəsində məlumatın vahid portaldan və mobil aplikasiyadan əldə olunması;

Təkcə nəqliyyat vasitələri deyil, bütün növ malların idxalı zamanı tətbiq olunan **gömrük rüsumları və vergilər** haqqında və **idxal və ixrac** zamanı tələb olunan sənədlər haqqında məlumatın vahid elektron portaldan və mobil aplikasiyadan əldə olunması;

**Vergi, Gömrük orqanları və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi nəzdində “Bir pəncərə” İxraca Dəstək Mərkəzinin birgə işinin əlaqələndirilməsi,** məlumatların vahid sistemdən daxil olması, istifadəçilərə ötürülməsi və idarəolunması.

# Tələb olunan ehtiyaclar

1) Vergi, Gömrük orqanları və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzin nəzdində “Bir pəncərə” İxraca Dəstək Mərkəzi tərəfindən rüsumlar və ödənişlərə dair **məlumatların təqdim olunması**

2) Yüksək informasiya və kommunikasiya tələblərinə cavab verən **elektron portalın və mobil aplikasiyanın yaradılması**

3) Elektron məlumat portalının hər üç orqan tərəfindən işləkliyinin saxlanması və qanunvericilikdə baş verən **dəyişikliklərin mütəmadi olaraq sistemdə yenilənməsi**




# Diqqətiniz üçün təşəkkür!